# 2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli 56 saylı sərəncamına uyğun olaraq **qərara alıram:**

**1.** 2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Təhsil Nazirliyi, habelə tabeçiliyində ali və orta ixtisas məktəbləri olan digər nazirliklərlə birlikdə ali və orta məktəblər üsün latın qrafikası ilə nəşri zəruri olan dərsliklərin çapını nəzərdə tutan "Dərslik" Proqramını üç ay ərzində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 27 dekabr 2004-cü il.**

# Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin normativ hüquqi əsaslarını təkmilləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 mart 2005-ci il.**

# Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə

## I. Ümumi müddəalar

**1.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

**2.** Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

**3.** Nazirlik bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaların yerinə yetirilməsində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və ictimai təşkilatlarla, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

**4.** Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

**5.** Nazirliyin saxlanması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

**6.** Nazirlik Bakı şəhərində yerləşir.

## II. Nazirliyin əsas vəzifələri

**8.** Nazirliyin əsas vəzifələri aşağıdakılardır:

**8.1.** təhsil sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasəti həyata keçirmək;

**8.2.** Azərbaycan Respublikasında təhsil sisteminin müəyyən edilmiş istiqamətlər üzrə inkişafını təmin etmək;

**8.3.** təhsil sahəsində dövlət tənzimlənməsini həyata keçirmək, təhsilin keyfiyyətinə dövlət nəzarətini təmin etmək;

**8.4.** vətəndaşların təhsil almaları ilə bağlı konstitusiya hüquqlarını qorumaq məqsədilə təhsildə bərabər imkanların yaradılmasına nail olmaq;

**8.5.** mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə elmi, tədris-metodiki rəhbərliyi həyata keçirmək;

**8.6.** Azərbaycan Respublikasının qanunvericiliyi ilə Nazirliyə həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

## III. Nazirliyin funksiyaları

**9.** Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

**9.1.** təhsil sisteminin fəaliyyətini və onun inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir və müvafiq sahə standartları hazırlayır;

**9.2.** təhsilin inkişafı ilə bağlı proqramların hazırlanıb həyata keçirilməsini təmin edir, bu sahədə digər orqanların fəaliyyətini əlaqələndirir;

**9.3.** təhsil müəssisələrinin şəbəkəsini və onların inkişaf perspektivlərini müəyyənləşdirir;

**9.4.** təlim və tədris prosesinin keyfiyyətinə, təhsil qanunvericiliyinin icrasına, təhsilin dövlət standartlarına riayət olunmasına nəzarət edir;

**9.5.** təhsil sisteminin inkişafı sahəsində analitik təhlillər aparır və monitorinqlər keçirir;

**9.6.** təhsil sistemində biliyin qiymətləndirilməsi meyarlarını, qiymətləndirmənin bal sistemini müəyyənləşdirir;

**9.7.** qanunvericiliyə uyğun olaraq təhsil sistemində demokratik idarəetmənin tətbiqini təmin edir;

**9.8.** mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq müəyyən olunmuş qaydalar əsasında təhsil müəssisələrinin attestasiyasını və akkreditasiyasını aparır;

**9.9.** təhsilin keyfiyyətini yüksəltmək və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqi məqsədilə eksperimentlər aparır;

**9.10.** dövlət təhsil standartlarının tələblərinə uyğun olaraq baza təhsil proqramlarını təsdiq edir, dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyatın siyahısını tərtib edir, onlara qrif (nəşr hüququ) verir;

**9.11.** icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir;

**9.12.** xüsusi istedada malik uşaq, şagird və tələbələrin təhsillərini davam etdirmək üçün lazımi tədbirlər görür;

**9.13.** ümumtəhsil məktəblərində sinifdən-sinfə keçirmə və buraxılış imtahanlarının sayını, formasını və qiymətləndirmə mexanizmini, təhsil alanların bir tədris müəssisəsindən digərinə köçürülməsi qaydalarını müəyyən edir;

**9.14.** müxtəlif səviyyəli və miqyaslı fənn olimpiadaları təşkil edir;

**9.15.** tədris müəssisələrinin kompüterləşdirilməsi, şagirdlər üçün təhsil portalının və saytlarının yaradılması istiqamətində müvafiq proqramlar hazırlayıb həyata keçirir;

**9.16**. aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə ciddi tərbiyə şəraitinə ehtiyacı olan, sağlamlıq imkanları məhdud (xüsusi qayğıya ehtiyacı olan) uşaq və yeniyetmələrin təhsilini təşkil edir;

**9.17.** qəyyumluq və himayə orqanlarına metodiki kömək göstərir, valideyn himayəsindən məhrum uşaqların müəyyənləşdirilməsini və onların təhsilə cəlb edilməsini təşkil edir;

**9.18.** müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görür, uşaq, şagird və tələbələrin idman yarışlarını, turist yürüşlərini, özfəaliyyətlərinə, texniki və bədii yaradıcılıqlarına baxışları və bu kimi digər tədbirləri həyata keçirir;

**9.19**. müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədris müəssisələrində təhsil alanların, pedaqoji və texniki-yardımçı heyət işçilərinin tibbi müayinədən keçirilməsini təmin edir;

**9.20.** tabeliyində olan təhsil müəssisələrinin və təşkilatların digər elmi müəssisə və təşkilatlarla elm və təhsil sahəsində fəaliyyətini əlaqələndirir;

**9.21.** elmi-texniki konfransların, simpoziumların və müsabiqələrin keçirilməsini, şagirdlərin, tələbə, aspirant və müəllimlərin xarici ölkələrdə keçirilən bu kimi tədbirlərdə iştirakını təşkil edir;

**9.22.** ali, orta ixtisas və peşə-ixtisas təhsili üzrə ixtisasların təsnifatı barədə təklif verir;

**9.23.** mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrinin nümunəvi əsasnamələrinin layihələrini hazırlayır, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə rəy və təkliflər verir;

**9.24.** təhsil müəssisələri məzunlarının yekun dövlət attestasiyası qaydalarını və imtahan prosesilə əlaqədar müvafiq reqlamentləşdirici sənədləri təsdiq edir;

**9.25.** müxtəlif səbəblərə görə pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin kateqoriyası, sağlamlıq imkanlarına görə məhdudiyyət qoyulan, eləcə də eksternat yolu ilə mütəxəssis hazırlığı qadağan edilən ixtisasların siyahısı barədə təkliflər verir;

**9.26.** mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrində məzunlara verilən dövlət təhsil sənədinin nümunəsini hazırlayır, onun verilmə qaydalarını müəyyənləşdirir, buraxılış kontingentinin sayına uyğun təhsil müəssisələrini dövlət təhsil sənədi blankları ilə təmin edir;

**9.27.** təhsil sənədlərinin tanınması və ekvivalentliyi ilə bağlı məsələləri həll edir;

**9.28.** xarici dövlətlərdə alınmış təhsil sənədlərinin nostrifikasiyası qaydalarına uyğun müvafiq komissiya yaradır, vətəndaşlara sənədlərin ekvivalentliyi haqqında şəhadətnamələr verir;

**9.29.** təhsil alanlar üçün adlı təqaüdlərin təsis edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır;

**9.30.** əmək bazarı tələbatının öyrənilməsi və mütəxəssis hazırlığının proqnozlaşdırılmasında iştirak edir;

**9.31.** ali, orta ixtisas və texniki peşə məktəblərinə illik tələbə və şagird qəbulu barədə təklif hazırlayır;

**9.32.** müvafiq təhsil müəssisələrində magistratura və doktoranturaların açılması məsələsini həll edir;

**9.33.** pedaqoji kadrların və təhsil işçilərinin hazırlanması, ixtisasının artırılması və yenidən hazırlanması işini təşkil edir;

**9.34.** distant təhsili üçün müvafiq şərait yaradır;

**9.35.** aidiyyəti icra hakimiyyəti orqanları, müəssisə və təşkilatlarla birlikdə əhalinin işləməyən təbəqəsinin peşə hazırlığını, ixtisasartırmasını və yenidən hazırlanmasını təmin edir;

**9.36.** pedaqoji kadrların təsdiq olunmuş qaydalara uyğun attestasiyasının keçirilməsini təşkil edir;

**9.37.** təhsil müəssisələrində pedaqoji və elmi-pedaqoji kadr vəzifələrinin tutulması qaydalarını müəyyən edir;

**9.38.** nazirlik sistemində olan təhsil müəssisələrində rəhbər kadrların nomenklaturasını müəyyənləşdirir;

**9.39.** pedaqoji kadrlara olan tələbatın ödənilməsi üçün tədbirlər görür, gənc mütəxəssislərin iş yerlərilə təminatı prosesinə əməli köməklik göstərir, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə lazımi işlər aparır;

**9.40.** təhsil müəssisələrinin tədris-maddi bazasını inkişaf etdirir, onların tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirir;

**9.41.** təhsil sistemində maliyyələşdirmə normativlərinin hazırlanmasında iştirak edir;

**9.42.** təhsil sistemində “attestasiya-maddi stimullaşdırma” mexanizminin tətbiqilə əlaqədar təkliflər hazırlayır;

**9.43.** təhsil işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması tədbirlərini həyata keçirir, onlara mövcud qanunvericilik çərçivəsində "Əmək veteranı" adının verilməsini təmin edir;

**9.44.** təhsil sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görür;

**9.45.** təhsil sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirir;

**9.46.** xarici ölkələrdə yaşayan azərbaycanlıların öz ana dilində ümumi təhsil almalarına, habelə Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixi və coğrafiyasının öyrənilməsinə yardım göstərir;

**9.47.** Azərbaycan Respublikası vətəndaşlarının mövcud qaydalara uyğun dövlət xətti ilə xaricdə təhsil almaları və elmi-tədqiqat işləri aparmaları üçün tədbirlər görür;

**9.48.** təsdiq olunmuş formada statistik məlumatların və hesabatların toplanılmasını, onların təhlilini və nəticələrin müvafiq orqanlara təqdim edilməsini həyata keçirir;

**9.49.** qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

## IV. Nazirliyin hüquqları

**10.** Nazirlik öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

**10.1.** mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada təhsilin inkişafı ilə bağlı zəruri məlumatlar və arayışlar tələb etmək;

**10.2.** qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil üzrə müvafiq normativ hüquqi aktlar qəbul etmək;

**10.3.** səlahiyyətləri daxilində təhsil müəssisələri tərəfindən icrası məcburi olan göstərişlər, əmr və sərəncamlar vermək, onların icrasına nəzarət etmək;

**10.4.** mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən təlim-tərbiyə müəssisələrində monitorinqlər keçirmək, tədrisin keyfiyyətinə dövlət nəzarətini təşkil etmək;

**10.5.** qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil fəaliyyəti üçün xüsusi razılıq (lisenziya) vermək, lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına müntəzəm nəzarət etmək;

**10.6.** mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tenderlər keçirmək, texniki şərtləri müəyyənləşdirmək, onların icrasına nəzarəti təmin etmək;

**10.7.** qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil məsələləri ilə bağlı beynəlxalq və dövlətlərarası münasibətlərdə Azərbaycan Respublikasını təmsil etmək, qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr (sazişlər, memorandumlar, bəyannamələr və s.) imzalamaq;

**10.8**. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Nazirliyin fəaliyyətinin təşkili

**11.** Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən nazir rəhbərlik edir.

**12.** Təhsil naziri Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**13.** Təhsil nazirinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan üç müavini vardır. Nazir müavinləri onların arasında nazir tərəfindən aparılmış vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

**14.** Təhsil naziri:

**14.1.** Nazirliyin fəaliyyətini təşkil edir və ona ümumi rəhbərliyi həyata keçirir;

**14.2.** nazir müavinləri arasında vəzifə bölgüsü aparır;

**14.3.** müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Nazirliyin mərkəzi aparatının, habelə birbaşa tabeliyində olan büdcədən maliyyələşən qurumların strukturunu təsdiq edir;

**14.4.** Nazirliyin mərkəzi aparatının işçilərini və təsdiq olunmuş nomenklatura çərçivəsində kadrları vəzifəyə təyin edir və vəzifədən azad edir, onlarla əmək müqavilələri bağlayır, müqavilələri ləğv edir, işçilər barəsində qanunvericiliklə müəyyən olunmuş qaydada mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

**14.5.** səlahiyyətləri daxilində Nazirliyin mərkəzi aparatının, habelə tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

**14.6.** bilavasitə tabeliyində olan təhsil müəssisələrinin, idarə və təşkilatların nizamnamələrini (əsasnamələrini), eləcə də mərkəzi aparatın struktur bölmələrinin əsasnamə və iş planlarını təsdiq edir;

**14.7.** təhsilin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, monitorinqlərin aparılması, strateji

fəaliyyət proqramlarının hazırlanması məqsədilə mütəxəssislərdən ibarət işçi qrupları, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır;

**14.8.** qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrin dövlət orqanları, qeyri-hökumət təşkilatları və hüquqi şəxslərlə, beynəlxalq təşkilatlarla danışıqlar aparır;

**14.9.** Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

**15.** Nazirlikdə nazirdən (kollegiyanın sədri), nazir müavinlərindən, Naxçıvan Muxtar Respublikasının təhsil nazirindən, Nazirliyin mərkəzi aparatının, tabeliyində olan qurumların rəhbər işçilərindən və alimlərdən ibarət kollegiya yaradılır.

**16.** Nazirliyin kollegiyasının sayı və şəxsi tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

**17.** Nazirliyin kollegiyası öz iclaslarında təhsillə bağlı aktual məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

**18.** Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

**19.** Kollegiya qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, protokollarla rəsmiləşdirilir və bir qayda olaraq nazirin müvafiq əmrləri və sərəncamları ilə həyata keçirilir.

**20.** Zəruri hallarda kollegiya iclaslarına iştirak etmək üçün digər icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, habelə ictimai təşkilatların nümayəndələri də dəvət edilə bilərlər.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri zamanı Varşava Universitetində görüşü

**(31 mart 2005-ci il)**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də, Polşa Respublikasına rəsmi səfərinin ikinci günü Varşava Universitetinin professor-müəllim heyəti və tələbələri ilə görüşmüşdür.

Dövlətimizin başçısı görüş iştirakçılarını polyak dilində salamladı.

Sonra universitetin rektoru, professor Pyotr Veqlenski görüşü açaraq dedi:

— Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Əziz dostlar və qonaqlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı Varşava Universiteti adından, bütün müəllimlər heyəti və tələbələri adından salamlayırıq. Eyni zamanda bu görüşdə iştirak edən bütün qonaqlara “Xoş gəlmisiniz!” deyirəm.

Cənab Prezident, Siz elə bir regiondan gəlmisiniz ki, o, bir tərəfdən bizə uzaq, digər tərəfdən isə yaxındır. Ölkələrimizin yerləşdiyi regionlar bir-birilə tarixi və mədəni, ümumi Avropa telləri ilə bağlıdır. İcazənizlə, Sizə bir tarixi faktı xatırladım. Qafqaz regionu ən qədim zamanlardan tanınırdı. Şərqə doğru uzun dəniz səyahətinə çıxan məşhur yunan arqonavtları Cənubi Qafqaz regionunun sahillərinə çatmışdılar. XIX əsrdə Qafqaz regionu Polşa xalqının tarixində çox böyük rol oynamışdır. Bu yerlərdə bizim bir çox soydaşlarımız məskunlaşmışlar.

XX əsrdə Azərbaycan, onun paytaxtı Bakı həmvətənlərimiz üçün işləmək və yaşamaq üçün bir məkan olmuşdur. İcazə verin, bir məqamla bağlı şəxsi şərhimi də verim. Nənəmin uşaqları Bakıya səfər etmiş və çalışmışlar ki, orada ailə qursunlar. Əfsuslar olsun ki, onlar bu məqsədlərinə nail ola bilmədilər.

Cənab Prezident, gəldiyiniz universitet dünyanın ən qədim universitetlərindən biridir. Bizim təhsil müəssisəmiz elmi-tədqiqat işləri də aparır və dünyanın bütün ölkələri ilə əlaqələr qura bilmişdir. Təbii ki, dünyanın hər hansı ölkəsinin mədəniyyətini və tarixini öyrənmək maraqlıdır. Lakin Cənubi Qafqaz regionu bu baxımdan xüsusi yer tutur. Varşava Universitetində Qafqaz regionunu öyrənən xüsusi bölmə vardır. Şərqi Avropa Elmi Mərkəzinin rəhbəri də burada iştirak edir. Qafqaz regionunda baş verən proseslər bu

mərkəzdə diqqətlə tədqiq olunur.

Cənab Prezident , Sizin universitetimizə gəlişiniz bizim üçün və xüsusilə burada təhsil alan tələbələr üçün çox əlamətdar hadisədir. İcazənizlə, Sizi kürsüyə dəvət edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

— Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Ən əvvəl, məni böyük tarixə və zəngin ənənələrə malik olan universitetinizə dəvət etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Bu universitet ölkənizin aparıcı təhsil ocaqlarından biridir.

Mən Polşada rəsmi səfərdə olmağımdan çox məmnunam. Səfər bu gün artıq başa çatmaq üzrədir. Dünən bizim Prezidentlə, Nazirlər Şurasının sədri və Polşa parlamentinin hər iki palatasının rəhbərləri ilə çox açıq və səmimi dostluq şəraitində keçən görüşlərimiz olubdur. Danışıqlar zamanı hər iki tərəf ümumi fikirdə olduqlarını bir daha bəyan etdilər. Polşa və Azərbaycan dost ölkələrdir. Onlar keçmişdə bir sıra ümumi tarixi anları yaşayıblar. Hər iki ölkə keçmişdə azadlıqdan məhrum olmuş, müstəqil olmadığından əziyyət çəkmişdir. Lakin ölkələrimizdəki inkişafın hazırkı mərhələsində Polşa və Azərbaycan beynəlxalq ictimaiyyətin səlahiyyətli üzvlərinə çevrilmiş, hər iki xalq öz həyat tərzini, gələcək inkişaf planını artıq özü müəyyən edir. Əminəm ki, ölkələrimiz bugünkü durumun bütün imkanlarından istifadə edirlər. Azərbaycanın coğrafi mövqeyi ölkəmizin üzləşdiyi çətinlikləri və malik olduğu üstünlükləri əvvəlcədən təyin edir. 1991-ci ildə Sovet İttifaqının süqutu nəticəsində dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz çox mürəkkəb vəziyyətə düşdü. Siyasi, hərbi və iqtisadi böhran baş alıb gedirdi və ölkəni məhv olmaq təhlükəsi qarşısında qoyurdu.

Ölkəmizdə çox güclü iqtisadi tənəzzül müşahidə olunurdu. Cəmiyyətdə mənfi meyillər, çətinliklər özünü büruzə verirdi və mövcud olan vəziyyəti daha da dərinləşdirirdi. Vətəndaş müharibəsi baş vermişdi, qeyri-qanuni hərbi birləşmələr bir neçə dəfə dövlət çevrilişi cəhdinə əl atmışdı. Bir sözlə, ölkənin gələcək taleyi böyük sual altında idi.

Lakin 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət dəyişməyə başladı. Azərbaycan iqtisadi çətinlikləri aradan qaldıra bildi, regional səviyyədə özünü qətiyyətlə tanıtmağa başladı. Beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrildi. Ölkəmiz müxtəlif beynəlxalq qurumları, o cümlədən Avropa təşkilatlarının üzvlüyünə qəbul olundu.

Mən hesab edirəm ki, indi Azərbaycanın dünya birliyində tutduğu yeri ölkəmizin kəsb etdiyi əhəmiyyətinə uyğundur. Avratlantik inteqrasiyaya doğru strateji xəttimiz uğurla həyata keçirilir. Azərbaycan hazırda Avropa Birliyinin “Yeni qonşuluq siyasətinə” daxil edilibdir. NATO ilə əməkdaşlığımız nəticəsində biz bu təşkilatla olan münasibətlərimizin ikinci mərhələsinə qədəm qoyuruq. Bu, fərdi tərəfdaşlıq tədbirlər planıdır.

Bütün bu məsələlər dünən Varşavada müzakirə olundu. Çünki Polşa artıq, əgər belə demək olarsa, bu vəzifənin öhdəsindən gəlibdir. Sizin ölkə bu çətin yolu artıq keçibdir. Azərbaycan isə hələ ki, bu yolun başlanğıcındadır. Beləliklə, ölkənizin beynəlxalq təşkilatlar çərçivəsində bizə göstərdiyi daimi dəstək, şübhəsiz ki, bizim üçün vox vacibdir. Biz bu dəstəyi hiss edirik və mənim budəfəki səfərim ölkələrimiz arasında mövcud olan çox sıx dostluq münasibətlərinin əyani sübutudur.

İqtisadi inkişafınız da çox uğurla gedir. Son 7 və ya 8 il ərzində Azərbaycanda ümumi daxili məhsul heç vaxt 10 faizdən aşağı olmamışdır. Bu il isə iqtisadi artım təxminən 14-15 faiz səviyyəsində gözlənilir. Büdcənin gəlirləri də gündən-günə artır. Biz əhalimizin sosial vəziyyətini də yaxşılaşdırmağa çalışırıq. Bazar iqtisadiyyatına olan sıx bağlılığımız yaxşı nəticələr verir. İqtisadiyyatımız liberaldır. Azərbaycanda aparılan

*Mən hesab edirəm ki, indi Azərbaycanın dünya birliyində tutduğu yeri ölkəmizin kəsb etdiyi əhəmiyyətinə uyğundur.*

*Azərbaycan bu gün bir çox beynəlxalq layihələrdə öncül ölkələrdən biridir və öz təşəbbüskarlığı ilə seçilir. Biz çox şadıq ki, regional əməkdaşlıq ölkəmizin beynəlxalq birliyə, Avratlantik strukturlarına inteqrasiyası üçün yeni imkanlar yaradır.*

genişmiqyaslı özəlləşdirmə prosesi də iqtisadi göstəricilərimizi daha da artırmaq üçün yeni imkanlar yaratdı. Qarşımıza qoyduğumuz bütün bu məqsədlərə nail olmaq üçün bizim güclü iqtisadiyyatımız olmalıdır.

Biz bir çox iqtisadi proqramların həyata keçirilməsi sahəsində fəal işləyirik. Onların böyük bir hissəsi artıq yerinə yetirilibdir. Hazırda isə bir sıra regional inkişaf proqramları həyata keçiririk ki, ölkə iqtisadiyyatını daha da şaxələndirək. Azərbaycan neft ölkəsi kimi tanınır. Baxmayaraq ki, ölkəmizin qurudakı neft yataqlarının əksəriyyətinin əsrlər boyu işlənilməsi nəticəsində ehtiyatlar artıq tükənibdir. Buna görə də neft strategiyamızın yeni mərhələsi dənizdəki yataqların işlənilməsi üçün dünyanın ən aparıcı neft şirkətləri ilə birgə işbirliyinin yaradılmasını nəzərdə tutur. Bu cür birgə əməkdaşlıq artıq öz bəhrəsini verir. Hazırda dünyadakı ən böyük enerji layihəsi bizim ölkəmizdə həyata keçirilir. Bu bir daha onu təsdiqləyir ki, Azərbaycan xarici sərmayələr üçün önəmli ölkədir. Yeri gəlmişkən deyim ki, adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş SSRİ məkanında və bir sıra qonşu dövlətlərlə müqayisədə aparıcı ölkədir. Biz ölkədə sərmayələr üçün çox əlverişli şərait yaratmışıq və beləliklə, böyük sərmayələri ölkə iqtisadiyyatına cəlb etmişik. Bütün bu amillər ölkəmizi daha da möhkəmləndirməyə imkan yaradacaq və Azərbaycanı beynəlxalq aləmdə daha fəal iştirakçıya çevirəcəkdir.

Bizim bir çox planlarımız və layihələrimiz var. Biz Cənubi Qafqazda və onun hüdudlarından kənarda regional əməkdaşlıq prosesini sürətləndirmək istəyirik. Azərbaycanın iştirakı olmadan heç bir regional layihənin həyata keçirilməsi mümkün deyildir. Beləliklə, regional baxımdan ölkəmizin mövqeyi getdikcə güclənir. Azərbaycan bu gün bir çox beynəlxalq layihələrdə öncül ölkələrdən biridir və öz təşəbbüskarlığı ilə seçilir. Biz çox şadıq ki, regional əməkdaşlıq ölkəmizin beynəlxalq birliyə, Avratlantik strukturlarına inteqrasiyası üçün yeni imkanlar yaradır. Təbii ki, bütün bunlar Azərbaycan xalqı üçün faydalıdır. Çünki yeni imkanlar və layihələr əhalinin sosial-iqtisadi vəziyyətini daha da yaxşılaşdıracaqdır. Azərbaycan çox əhəmiyyətli nəqliyyat yollarının kəsişməsində yerləşir və nəqliyyat dəhlizi rolunu oynayır. Ölkəmizin Şərq-Qərb, Şimal-Cənub istiqamətlərində vacib mövqeyi var. Tranzit imkanlarımızdan istifadə edərək, regionda gedən bir sıra prosesləri idarə etmək iqtidarında olduq.

Bildiyiniz kimi, regionun özü də sabit deyildir. Əgər Bakıdan istənilən istiqamətə

nəzər salsanız, şimal, cənub və qərb istiqamətlərinə baxsanız, münaqişələri və əzab-əziyyətləri görəcəksiniz.

Azərbaycanın özü işğal və təcavüzün qurbanı olmuşdur. Əlbəttə ki, eyni vəziyyətdə olan xalqların çəkdiyi əziyyətləri də biz çox yaxşı anlayırıq. Qafqazdakı vəziyyət, İraqdakı durum, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi təhlükənin aradan qaldırılmasına xidmət etmir, əksinə, bütün bu amillər mövcud vəziyyəti daha da gərginləşdirə bilər. Bu gün bizim ölkə təhlükəsizlik, sabitlik və normal inkişafı təcəssüm etdirən bir adaya bənzəyir. Azərbaycanın böyük dözümlülüyü ilə seçilən cəmiyyəti var. Müxtəlif millətlərin və dinlərin nümayəndələri ölkəmizdə sülh şəraitində yaşayırlar. Bu, tarixdən də çox yaxşı məlumdur və ölkəmizin ən böyük nailiyyətidir. Müstəqilliyimizi qazandıqdan sonra da müxtəlif xalqların və millətlərin əmin-amanlıq şəraitində bir-biri ilə yanaşı yaşamasını yüksək qiymətləndiririk.

Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü regiondakı sabit vəziyyətə ən böyük təhlükədir. Hesab edirəm ki, sizin mövcud olan münaqişə haqqında məlumatınız var. İstərdim qısaca olaraq bu münaqişə haqqında danışım. Azərbaycanın regionu olan Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənilər əvvəllər orada heç vaxt yaşamayıblar. Onlar Dağlıq Qarabağa XIX əsrin əvvəllərində İran və Türkiyədən çar Rusiyası tərəfindən köçürülmüşlər. Bu o məqsədlə edilmişdir ki, Rusiya Qafqazda özünə dayaq əldə etsin. Ermənistan indi də həmin funksiyanın yerinə yetirilməsini davam etdirir. Ermənilər hazırda müxtəlif ölkələrin bu regionda siyasətinin həyata keçirilməsində də müəyyən rol oynayırlar. Başqa sözlə desək, Dağlıq Qarabağ heç vaxt erməni ərazisi olmayıbdır. Hətta əgər siz Qarabağ sözünün

***Azərbaycan böyük potensiala malik olan ölkədir. Onun böyük humanitar potensialı var, zəngin təbii sərvətlərə malikdir, əlverişli coğrafi məkanda yerləşir. Ölkəmiz Avropa dəyərlərinə qəti surətdə sadiqdir.***

***Azərbaycan öz qonşuları ilə sülh şəraitində yaşamaq istəyir, beynəlxalq aləmdə daha fəal olmaq əzmindədir. Bizim ölkə beynəlxalq ictimaiyyətin fəaliyyətinə böyük töhfə verə və bir çox şeyləri digər ölkələrin təcrübəsindən öyrənə bilər.***

mənasına nəzər yetirsəniz, onun açmasını erməni dilində tapmayacaqsınız. Ermənidən soruşsanız, sizin dildə Qarabağ nə deməkdir, o, sizə cavab verə bilməyəcəkdir. Bizim dildə isə onun mənası böyük bağdır - Qara bağ. Tarix həmçinin bu faktı açıq-aydın sübut edir ki, ermənilər bu regiona qonaq qismində gəlmişlər. Rusiya imperiyasının süqutundan və Sovet İttifaqının yaranmasından sonra sovet respublikaları arasında yeni sərhədlərin çəkilməsi ilə bağlı müxtəlif qərarlar qəbul edilmişdir. Tarixi keçmişi nəzərə alsaq, Dağlıq Qarabağ Azərbaycanın tarixi bir hissəsi olaraq bizim inzibati sərhədlərimiz çərçivəsində qalmışdır.

Bu bölgənin etnik quruluşu belə olmuşdur: 75 faiz ermənilər, 25 faiz isə azərbaycanlılar. Sovet İttifaqının süqutu yaxınlaşdıqca, Dağlıq Qarabağda separatçı hərəkat başlandı. Ermənistan tərəfindən dəstəklənən bu hərəkat nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Azərbaycanın işğal olunmuş digər 7 rayonundan bütün azərbaycanlılar qovuldu. Bu gün ümumilikdə ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var. Bu, işğal və təcavüzün nəticəsidir. Bu işğalın nəticəsində Azərbaycan ərazisinin 20 faizi zəbt olunubdur.

Münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz sırf beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanır. Yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, təcavüz qurbanı olan bütün qaçqın-köçkünlər öz yurd-yuvalarına qayıtmalıdır. Bundan sonra isə Dağlıq Qarabağa Azərbaycanın hüdudları çərçivəsində ən yüksək muxtariyyət statusu verilə bilər. Biz dünyada, o cümlədən Avropada mövcud olan ən yüksək statuslu muxtariyyət variantlarını öyrənmişik. Beləliklə, yeni bir şey icad etməyə ehtiyac yoxdur. Mümkün olan bütün imkanlar masa üstündədir. Ermənilərin mövqeyi isə fərqlidir. Onların mövqeyi özlərinin arzularına, fikirlərinə və istəklərinə əsaslanır. Bu mövqe beynəlxalq hüquq normaları ilə heç cür uzlaşmır. Onlar deyirlər ki, Dağlıq Qarabağdakı ermənilərin öz müqəddəratını təyin etmək hüququ vardır. Digər sözlə desək, onlar Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istəyirlər. Bizim hər hansı xalqın öz müqəddəratını təyin etmək hüququna qarşı heç bir iradımız yoxdur. Lakin ermənilərə gəldikdə, onlar öz müqəddəratını Ermənistan dövləti çərçivəsində artıq təyin ediblər. Gəlin təsəvvür edək ki, sabah ermənilər yaşadıqları istənilən yerdə öz müqəddəratını təyin etmək istəyinə düşsələr, nələr baş verər. Gürcüstanda yaşayan ermənilənin sayı 250 mindir. Rusiyada isə milyonlarla erməni yaşayır. Ermənilər Birləşmiş Ştatlarda, Fransada və dünyanın bir çox ölkələrində yaşayırlar. Əgər onlar yaşadıqları yerlərdə öz müqəddəratını təyin etmək hüququnu tələb etməyə başlasalar,

bunun sonu necə olacaq? Bu, beynəlxalq prinsiplərə ziddir. Mən hesab edirəm ki, Dağlıq Qarabağda yaşayan 70 min erməni gələcəkdə sülh şəraitində, təhlükəsizlik zəmanəti ilə yaşaya bilər. Onlara suveren Azərbaycan dövləti çərçivəsində yüksək muxtariyyət statusu verilə bilər.

Biz münaqişəni sülh yolu ilə  həll etməyə çox çalışdıq, lakin  artıq 10 ildən çoxdur ki, bu işğal və təcavüz davam edir.

Bu sahədə heç bir nəticə əldə edilməyibdir. Lakin beynəlxalq ictimaiyyət get-gedə bu məsələyə diqqətini artırır və bu münasibət bizi nikbin edir. Nüfuzlu beynəlxalq təşkilatlar birmənalı olaraq öz mövqeyini bildirirlər. Misal üçün, yanvar ayında Avropa Şurası qətnamə qəbul edib, orada hər şey aydın şəkildə yazılıbdır. Sənəddə bildirilir ki, bu müharibə Azərbaycana qarşı aparılmış etnik təmizləmədir, Ermənistan ölkəmizə qarşı təcavüz edibdir. Ümid edirik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin sülh yolu ilə həll olunmasında bizə yardım edəcəkdir.

Azərbaycan böyük potensiala malik olan ölkədir. Onun böyük humanitar potensialı var, zəngin təbii sərvətlərə malikdir, əlverişli coğrafi məkanda yerləşir. Ölkəmiz Avropa dəyərlərinə qəti surətdə sadiqdir. Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvüdür. Əvvəldə dediyim kimi, ölkəmiz Avropa Birliyinin “Yeni qonşuluq siyasətinə” daxil edilibdir. Hesab edirik ki, bu siyasətin praktiki nəticələri olacaq və bizə tam inteqrasiya olunmaq imkanı yaradacaqdır. Biz gələcəyimizi Avratlantik ailəsinə inteqrasiyada görürük. Bu bizim uzunmüddətli siyasətimizdir. Bu siyasət davam edəcək, hökumətimiz tərəfindən həyata keçirilir və xalq tərəfindən dəstəklənir.

Əlbəttə, məqsədlərimizə nail olmaq üçün və regionda daha yaxşı durumun bərqərar olunması üçün bizə sülh, sabitlik və təhlükəsizlik lazımdır. Ona görə də keçmiş sovet respublikalarındakı münaqişələr həll olunmalıdır. Söhbət təkcə Dağlıq Qarabağdan getmir. Oxşar münaqişələr Gürcüstanda - Abxaziya və Cənubi Osetiyada, Moldovanın Dnestryanı regionunda mövcuddur. Nəhayət, Dağlıq Qarabağ münaqişəsi. Ümumilikdə, keçmiş sovet respublikalarında dörd oxşar münaqişə mövcuddur. Onların hamısının oxşarlıqları var. Onların səbəbləri təcavüzkar separatçılıq, etnik təmizləmə və xarici yardım əsasında suveren dövlətlərin ərazisinin işğalıdır. Beləliklə, bütün dörd münaqişənin həllinə eyni üsulla yanaşmaq lazımdır. Ümid edirəm ki, beynəlxalq ictimaiyyət nəhayət ki, bu vəziyyətə öz

diqqətini artıracaq və Avropada “qara ləkələrin” və ya nəzarətsiz zonaların olmasına son qoyacaqdır. Bu nəzarətsiz zonalar Dağlıq Qarabağ, Abxaziya, Dnestryanı region və Cənubi Osetiyadır. Bu yerlərdə bir sıra qeyri-qanuni əməliyyatlar aparılır, narkotik vasitələrin hazırlanması və dövriyyəsi müşahidə olunur, beynəlxalq terrorçular burada özlərinə məskən salırlar.

Burada heç bir beynəlxalq nəzarət yoxdur. Bu gün dünyada elə bir ölkə yoxdur ki, orada beynəlxalq monitorinq olmasın. Qloballaşan cəmiyyətləri olan ölkələrdəki vəziyyət çox şəffafdır. Beynəlxalq ictimaiyyət bu sahədə çox fəal işləyir. Lakin bizdə isə belə nəzarətsiz zonalar var. Orada heç bir nəzarət aparılmır. Bu zonalardan sülhə və təhlükəsizliyə qarşı istifadə edilməsi mümkündür. Buna baxmayaraq, mən yenə də deyə bilərəm ki, biz beynəlxalq ictimaiyyətlə birgə çalışaraq, bu münaqişənin ədalətli və düzgün yolla həllinə nail olacağıq.

Azərbaycan öz qonşuları ilə sülh şəraitində yaşamaq istəyir, beynəlxalq aləmdə daha fəal olmaq əzmindədir. Bizim ölkə beynəlxalq ictimaiyyətin fəaliyyətinə böyük töhfə verə və bir çox şeyləri digər ölkələrin təcrübəsindən öyrənə bilər. Azərbaycanın uzunəsrlik tarixi, mədəniyyəti və adət-ənənələri var. Lakin müstəqil ölkə kimi biz gənc ölkəyik. Buna görə də, bir quruluşdan digər quruluşa keçən ölkəmizin öz standartlarını beynəlxalq standartlara uyğunlaşdırması üçün dünya ictimaiyyətinin dəstəyinə böyük ehtiyacı var.

Vaxtınızı çox almaq istəmirəm. Diqqətinizə görə çox minnətdaram. Bir daha demək istəyirəm ki, Polşada olmağımdan çox şadam. Əfsuslar ki, səfərim artıq başa çatır. Lakin əminəm ki, gözəl ölkənizə bir daha səfər edəcəyəm.

Çox sağ olun.

# A.H.Naxçıvanlının Azərbaycan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Aqiyə Həbib qızı Naxçıvanlı Azərbaycan Müəllimlər İnstitutunun rektoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 mart 2005-ci il.**

# Bilkənt Universitetinin İdarə Heyətinin sədri cənab İhsan Doğramacıya



Hörməli İhsan Doğramacı!

Şanlı yubileyiniz - anadan olmağınızın 90 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz dərin məzmunlu və şərəfli bir ömür yolu keçərək, insanlıq və bəşəriyyət naminə nəcib əməllərinizlə, həkim, alim, ziyalı və ictimai xadim kimi çoxşaxəli fəaliyyətinizlə böyük nüfuz qazanmışsınız.

Bu gün də Siz yorulmadan çalışır, gənclik şövqü ilə elmi, yaradıcı işinizi davam etdirir, bütün bacarığınızı, biliyinizi, qüvvənizi indiki və gələcək nəsillərin rifahına yönəldirsiniz.

Türk dünyasının yüksəlişi, Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının daha da möhkəmlənməsi naminə sizin xidmətləriniz əvəzsizdir. Azərbaycanda Sizi çox sevir, Sizə dərin hörmət və ehtiram hissi ilə yanaşırlar.

Atam Prezident Heydər Əliyev ilə Sizin aranızda mövcud olmuş səmimi münasibətlər, dostluq mənim üçün, bütün ailəmiz üçün olduqca dəyərlidir. Siz bizim hamımızın əzizisiniz. Möhtərəm İhsan Doğramacı, belə bir əlamətdar gündə Sizi təbrik etməkdən, Sizə ən xoş arzularımı yetirməkdən böyük məmnunluq duyuram, Sizə, Ayser xanıma, ailənizin bütün üzvlərinə möhkəm cansağlığı, səadət, uğurlar diləyirəm.

Dərin hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 1 aprel 2005-ci il.**

# Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**1.** Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 1992-ci il 27 oktyabr tarixli 283 nömrəli Fərmanı qüvvədən düşmüş hesab edilsin, "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 19 avqust tarixli 183 nömrəli Fərmanının qüvvədən düşmüş hesab edilməsi haqqında" 2002-ci il 26 dekabr tarixli 831 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 12, maddə 726) İ bəndinin 2-ci yarımbəndi çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 6 aprel 2005-ci il.**